# Xalqımız böyük faciələrdən qurtuldu

**1993-cü ilin iyununda Ulu Öndər Heydər Əliyevin Bakıya gəlməsindən sonra dövlətimiz və xalqımız böyük faciələrdən xilas oldu.**



Həmin vaxt ölkədə xaos, özbaşınalıq, separatçılıq meyilləri baş alıb gedir, torpaqlarımız Ermənistan tərəfindən sürətlə işğal olunurdu. Hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün Surət Hüseynovdan müdafiə olunmaq üçün ordunu Bakıya çağırması Qarabağı müdafiəsiz qoymuşdu. Bu da Ermənistanın torpaqlarımızı hərbi müqavimət olmadan işğal etməsinə yol açmışdı.

Belə ağır vəziyyətdə xalq yeganə çıxış yolunu Heydər Əliyevin Bakıya gəlməsində görürdü. Azərbaycanın başsız qaldığı bir zamanda Heydər Əliyev xalqın təkidli tələbi və xahişini nəzərə alaraq Bakıya qayıtdı. 1993-cü il iyunun 9-da xalq aeroporta axışmış və Ulu Öndər Heydər Əliyevi gül-çiçəklə qarşılamışdılar. Ali Sovetin iclasına qatılan Heydər Əliyev tribunadan birbaşa Gəncəyə gedəcəyini deyərək onunla getmək istəyənlərə də binanın qarşısında dayanan avtobusa minməyi təklif etmişdi. Təbii ki, o zaman Gəncəyə getmək Heydər Əliyev üçün olduqca təhlükəli idi. Amma Ulu Öndərin qətiyyətli iradəsi, cəsarəti, dövlətin milli maraqlarını öz canından üstün tutması və xalqın yanında olmaq istəyi bütün təhlükələrin fövqündə idi. Ulu Öndər Heydər Əliyev Gəncəyə gedərək orada görüşlər keçirdi, vətəndaş qarşıdurmasının qarşısını aldı.

Sonrakı mərhələdə Ümummilli Lider Heydər Əliyev prezidentlik vəzifəsini layiqincə icra etməyə başladı. Ulu Öndərin qətiyyəti və yüksək diplomatik bacarığı sayəsində ölkədə siyasi vəziyyət stabilləşdi və Heydər Əliyev bütün diqqətini Ermənistanla mübarizəyə cəlb etdi. Heydər Əliyevin rəhbərliyi altında Füzuli istiqamətində tarixə Horadiz əməliyyatı kimi düşən əkshücum əməliyyatı təşkil olundu. Görülən bütün işlərin sayəsində 1994-cü ilin yanvarın əvvəlində ordumuz Füzuli rayonunun Horadiz qəsəbəsini və 20 yaşayış məntəqəsini düşməndən azad etdi və sonradan Ermənistan atəşkəsə imza atmağa məcbur qaldı.

Beləliklə, Ümummilli Liderin tarixi qayıdışı dövlət müstəqilliyimizi qorudu və xalqımızı böyük fəlakətlərdən qorudu. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf edən dövlətdir. Bu inkişaf isə Heydər Əliyev ideyalarının təntənəsidir.

***Azər BADAMOV,***
***Milli Məclisin deputatı***

Azərbaycan.- 2023.- 15 iyun.- S.16.